## QƏRBİ AZƏRBAYCAN



# Arçutu düşünəndə qəlbim göynəyir...

**Pəmbək mahalının Böyük Qarakilsə rayonu (Quqork) Qərbi Azərbaycanın qədim yaşayış məskənlərindən olub. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 149 kilometr olub. Bu ərazi Ermənistanın Cəlaloğlu, Tumanyan, Karvansara, Axta, Ələyəz, Hamamlı rayonları ilə həmsərhəd idi.**

Nadir şah Əfşarın 1747-ci ildə öldürülməsindən sonra Cənubi Qafqazda müstəqil xanlıqlar yaradıldı. Onlardan biri də İrəvan xanlığı olub. Pəmbək mahalı da o dövrdə güclü çarların hakimiyyəti altında idi.

Ermənilərin Qərbi Azərbaycan torpaqlarına köçürülməsindən sonra Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyası haylara arxadayaq oldu.

XX əsrdə Qərbi azərbaycanlılara qarşı Rusiya və onun Qafqazdakı əlaltısı olan Ermənistan tərəfindən aparılmış işğalçılıq siyasəti nəticəsində dəhşətli talanlar edilmiş, Azərbaycan türkləri kütləvi şəkildə öldürülmüş, onların yaşadıqları ərazilər haylar tərəfindən zəbt edilmişdir. Erməni vandalları Qarakilsə rayonunda daha qanlı faciələr törətmiş, qırğınlar əsasən keşişlərin rəhbərliyi əsasında aparılmışdı.



Azərbaycanlıların yığcam yaşadıqları bu rayonun yeraltı və yerüstü sərvətlərinə sahib olmaq üçün ermənilər dəridən-qabıqdan çıxır, hər vasitə ilə burada yaşayan azərbaycanlıları sıxışdırmağa çalışırdılar. 1905-1907-ci illərdə erməni separatçıları Qərbi Azərbaycanın başqa ərazilərində olduğu kimi, Qarakilsədə də azərbaycanlıları sıxışdırmış, onlara işgəncə və əzab vermişlər. Belə bir çətin məqamda Arçut kəndinin bir neçə pəhləvan cüssəli oğulları gecə ikən daşnakların məskunlaşdığı mağaranı mühasirəyə almış, sərxoş halda yuxulayan erməni quldurlarını tərk-silah etmiş, onların silah-sursatlarını ələ keçirmiş, Xaçatur, Hovsep və Aram adlı ermənilərin qulaqlarını kəsmiş, ağızlarını bağlamış, elə bir vəziyyətdə kolluğa atmışlar. Bu xəbər ermənilərin başçılarını çox qəzəbləndirmiş, qaranlıq bir gecədə azərbaycanlıları gülləbarana tutmuşlar.

Qarakilsə rayonunun azərbaycanlıları 1918-ci ildə ermənilər tərəfindən daha böyük təzyiqlərə məruz qalmış, daşnaklar heç nədən çəkinmədən dinc əhalini amansızlıqla qətlə yetirmiş, var-dövlətlərini zorla əllərindən almış, çox insanları damlara doldurub həmin yerlərə od vurub yandırmış, min bir əziyyətlə üzləşən insanların çoxu məcburən ata-baba yurdlarını tərk etmişlər. Bu dəhşətli hadisələr Bakıda bolşevik pərdəsi altında qərar tutan Stepan Şaumyan və digər erməni cəlladlarının rəhbərliyi ilə həyata keçirilirdi.

1920-ci il noyabrın 29-da Ermənistanın sovetləşməsi başa çatdıqdan sonra ermənilərin vuran əlləri yanına düşdü, onlar məcburən bolşeviklərdən çəkinərək müsəlmanlara qarşı təzyiqləri dayandırdılar.

Ancaq ermənilər heç vaxt Qərbi azərbaycanlılara qarşı məkrli niyyətlərindən əl çəkmədilər. Moskvada İ.Stalini, Molotovu və digər ermənipərəst qüvvələri ələ alıb xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi ilə 1948-1953-cü illərdə Ermənistan adlandırılan ərazidən 150 min azərbaycanlını zorla ata-baba yurdlarından köçürdülər. Bu isə xalqımız tərəfindən haqlı narazılığa səbəb oldu.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 1980-ci illərdən başlayaraq Qərbi azərbaycanlılara qarşı mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə ermənilər milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin haylara mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar dünya azərbaycanlılarının mənfi obrazını formalaşdırmaq cəhdləri də göstərirdilər. "Yazıq, məzlum erməni xalqı"nın obrazı yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu şəkildə təhrif olunmuş, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilmişdir.

1988-ci ildə əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Qərbi Azərbaycanın digər ərazilərindən azərbaycanlılar min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından kütləvi şəkildə qovuldular. İrəvanda, Basarkeçərdə və digər ərazilərdə ermənilər nümayişə çıxıb, uydurma Qarabağ məsələsini ortaya atdılar. Bu anti-Azərbaycan ideyaları mitinqə rəhbərlik edən Zori Balayan, Sero Xanzadyan, Silva Kaputikyan və digər millətçi şovinistlər həyata keçirirdi. Heç nədən çəkinmirdilər. Bilirdilər ki, Moskva, Qorbaçov onların sözünü eşidir.

1988-ci ilin şaxtalı qış günlərində 300 min Qərbi azərbaycanlı məcburən öz ata-baba yurdlarını tərk etdi. Nəhayət, ermənilər öz havadarlarının köməyi ilə son deportasiyanı da reallaşdırdılar.

Artıq 37 ildir ki, Qərbi azərbaycanlılar doğma yurdlarından, qədim Oğuz ellərindən ayrılmışlar. Bütün qaçqınlar kimi, mən də yurd həsrəti ilə yaşayıram. Axşam-sabah düşmən tapdağında qalan Qarakilsəni, doğma kəndim Arçutu düşünürəm, atlas geyimli dağları qucaqlamaq istəyirəm. Haqq-ədalət bizimlədir, çox tezliklə biz elliklə qəribsəmiş yurd yerlərinə dönəcəyik, o yerlərdə yenidən telli saz dilə gələcək, kəhər atların səsi eşidiləcəkdir...

**Apin MUSAYEV,**
**Bakı şəhəri, iş adamı.**